# Azərbaycan-BƏƏ iqtisadi əməkdaşlığı çoxşaxəli, dərin və məhsuldardır

## Birinci Beynəlxalq İnvestisiya Forumu bu yolda irəliyə doğru daha bir addım oldu

Azərbaycanda formalaşmış şəffaf və etibarlı investisiya mühiti, beynəlxalq bazarlara çıxış imkanları, sərmayələrin platforması və təşviqi mexanizmləri Bakıda keçirilən I Beynəlxalq İnvestisiya Forumunun başlıca mövzularından olub. Forumda ölkəmizin iqtisadiyyatının uğurlu diversifikasiyası, möhkəm makroiqtisadi əsasları və dayanıqlı inkişaf strategiyası bir daha vurğulanıb. Qeyd edilib ki, bunlar beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir.

Bu forum Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq yolunda irəliyə doğru daha bir addım oldu. Belə ki, plenar sessiya çərçivəsində baş nazirin müavini Samir Şərifov və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Həsən əs-Suveydinin iştirakı ilə Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə BƏƏ-nin "Modon Holding"i arasında "Şəhər daxilində şəhər" ("City within a City") konsepsiyasının inkişafına dair Əməkdaşlıq Müqaviləsi imzalandı. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Modon Holding"in sədri Cassem Əl Zaabi imzaladılar. Konsepsiya Böyükşor gölü ətrafında sağlamlıq, ticarət, təhsil və mehmanxana obyektlərini əhatə edən müasir sahilyanı zonanın yaradılmasını nəzərdə tutur.

Forumda digər sahələr, o cümlədən Azərbaycan-BƏƏ enerji əməkdaşlığı mövzusu da geniş yer alıb. Tədbirin "Enerji transformasiyası" mövzusundakı panel müzakirəsində "Masdar" şirkətinin MDB regionu üzrə inkişaf və investisiya şöbəsinin rəhbəri Məryəm əl-Mazrui çıxış edib. O, "Masdar" şirkəti ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davam etdiyini bildirib. Ölkəmizin özünün etibarlı tərəfdaş olduğunu sübut etdiyi, buna görə də bərpaolunan enerji layihələrimizin inkişafına bundan sonra da sərmayə yatırılacağı qeyd edilib.

Məryəm əl-Mazrui həmçinin bildirib ki, "Masdar" ilə Azərbaycan arasında əməkdaşlığın əsası 2018-ci ildə Energetika Nazirliyi ilə birgə qoyulub. Bu əməkdaşlıq nəticəsində ölkədə ilk böyük bərpaolunan enerji obyekti - 230 MVt gücündə günəş-elektrik stansiyası tikilib və artıq iki ilə yaxındır uğurla fəaliyyət göstərir.

Onun sözlərinə görə, 2024-cü ildə Bakı Enerji Həftəsi çərçivəsində "Masdar" və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) 1 qiqavat həcmində əlavə gücün inkişafına dair mühüm saziş imzalayıblar: "Bura Biləsuvar və Neftçalada artıq tikintisi başlayan iki günəş stansiyası, həmçinin quruda 240 MVt gücündə külək parkı daxildir. Beləliklə, Azərbaycana investisiyalarımızın ümumi həcmi təxminən 1,2 milyard dollar təşkil edəcək".

Xatırladaq ki, 10 gün əvvəl Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə rəsmi səfəri çərçivəsində Şuşada Azərbaycan-BƏƏ əməkdaşlığına və tərəfdaşlığına aid 14 sənəd imzalanmışdır. Bunların əksəriyyəti iqtisadi sahələrə aiddir. BƏƏ-nin Energetika və İnfrastruktur Nazirliyi ilə Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Energetika Nazirliyi arasında müvafiq olaraq nəqliyyat və enerji, ölkəmizin Dövlət Turizm Agentliyi ilə BƏƏ-nin İqtisadiyyat və Turizm Nazirliyi arasında turizm əməkdaşlığı barədə sənədlər imzalanmışdır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə BƏƏ-nin Ticarət və Sənaye Palataları Federasiyası arasında imzalanan Anlaşma Memorandumuna əsasən, Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması nəzərdə tutulub. Sənədlərdən biri "Bakı Gəmiqayırma Zavodu" MMC ilə "Əbu-Dabi Limanları Şirkəti" ASC arasında iki ədəd konteyner gəmisinin tikintisinə və satışına dair Müqavilə"dir. İmzalanan sənədlərə əsasən, ölkələrimiz bank sektoru, süni intellekt sahəsində də əməkdaşlıq edəcəklər.

Məlum olduğu kimi, Azərbaycan-BƏƏ iqtisadi əməkdaşlığında enerji sektorunun böyük önəmi var. Bunu son dövrdə imzalanan sənədlərdə də göstərir. Belə ki, sentyabrın 16-da imzalanan sənədlər sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında "Cənub qaz dəhlizi"ndə investisiya haqqında Anlaşma Memorandumu" da var.

Həmin gün Şuşadakı çıxışında Prezident İlham Əliyev bunu vurğulayaraq demişdir: "Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci günəş-elektrik stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə qiqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır.

Digər investisiyayönümlü layihələr üzərində işləyirik. Bugünkü nümayəndə heyətlərinin tərkibi özlüyündə bir göstəricidir. Bu göstərir ki, bizim əlaqələrimiz nə qədər çoxşaxəlidir, nə qədər dərindir, səmimidir və məhsuldardır".

Ölkəmizin evsahibliyi etdiyi Birinci Beynəlxalq İnvestisiya Forumu deyilənlərin daha bir təsdiqi oldu.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 24 sentyabr (№204).- S.9.